# Rəssam ola bilməyən məşhur yazıçı

**Türkiyədə haqqında ən çox danışılan, dedi-qodusu edilən yazıçı heç şübhəsiz Orxan Pamukdur.**

### *Adımı anam qoydu...*

Orxan Pamuk 1952-ci il İstanbulda, imkanlı və ziyalı ailədə dünyaya göz açmışdır.Ailəsində uşaqlara padşah adını qoymaq ən çox nənəsinin xoşuna gəlirdi. Murad, Səlim və.s. Orxan Pamukun özü danışır: Anamla nənəm arasında ad qoymaq üçün mübahisə düşdü.

Bir gün anam belə dedi: Adının Orxan olmasını mən istədim. Çünki padşah Orhan elə çox təntənəli, dəbdəbəli, maraq çəkmək üçün çırpınan bir insan deyildi! Böyük işlər arxasında qaçmadı. O sadə idi... "Həmişə Təvazökar ol, vitrinə çıxma, ətrafda çox görünmə, diqqət çəkmə! ". Onsuz da anamın bu seçimi etməsinə səbəb olan başlıca düşüncəsi ilə həyatım boyu mübarizə apardım. Yenə də, adım çox təyin edici deyil. Osman olsa da bir şey dəyişməzdi.

### *Uşaqlığı*

Böyüdüyü yer olan Nişantaşıyla vəo illərləbağlı təəssüratlarını Pamuk müsahibələrinin birindəbelədeyir:

"Yaşadığımız evin küçəyəbaxan pəncərəsindən avtomobil keçəndə"Aa avtomobil keçdi" deyərdik. Türkiyəüçün ilk sayılacaq şeyləri görmək imkanı olan bir yer idi.

Məsələn, ilk dəfətoster cihazını orda görmüşdüm. İnsanlar vardı, camaat həyatının yaşandığı bir yer idi.

Məktəblərdədərslər bitəndə, küçələr şagird axınının içindəitərdi. Azlıqların, özəllikləərmənilərin vəyəhudilərin çox yaşadığı bir yer idi. Sinfimizin üçdəbiri azlıqlardan ibarət idi. Erməni, Rum, Yəhudi. Bunlar mənəadi gəlirdi. Eləbilirdim ki, bütün Türkiyəbelədir."

### *Rəssam ola bilməyən yazıçı*

22 yaşıma kimi rəssam olacağımı düşünürdüm. Sonra romançı oldum.

"İstanbul" kitabımda da rəssamlıqdan romançılığa necə keçdiyimi izah etmişəm. 7 yaşımdan bəri şəkil çəkmək mənə həyatda bu tərbiyəni verdi: Bir otaqda tək başına oturub xəyal gücünlə və əllə işləmək ... İrəlidə rəssam olacağam düşüncəsiylə uşaqlığımda özümü sənətçi olmağa hazırladım.

Nəticədə rəssam yox, yazıçı oldum. Amma şəkil çəkmək mənə sənətçi intizamını, xəyal gücünə hörmət etməyi, sənət, ədəbiyyat kimi şeyləri lüzumsuz görməməyi, əksinə varoluşumun təməl ünsürü olaraq qəbul etməyi öyrətdi.

### *İlk sevgilisi*

Şəkil, onun dünyası halına gəlir. Adı Farsca qara gül mənasını verən ilk eşqini şəkillərində model olaraq istifadə edir. Onu Cihangirdə şəkil atelyesi olaraq istifadə etdiyi evdə uzanmış halıyla verdiyi pozla təsvir edir. Hətta qara gülünü, Xəlil Paşanın Yatan Qadın rəsmindeki modelə bənzədir. Rəssam olmaq istəyən Orxan sevdiyi qıza qovuşa bilmir. Belə ki, atası onu təhsil alması üçün xaricə yollayır.



Pamukun bir neçə il davam edən şəkil eşqi, "Qara Gül"ündən məcburi ayrılığıyla iflasa uğrayır. Universiteti tərk etmək və rəssam olmaq istədiyi üçün anasıyla qızğın mübahisələrin içində tapan Pamuk, sonunda yazıçı olmağa qərar verir.

### *Nobel alan türk*

2006-cı ilin Nobel seçimində Orxan Pamukun rəqibi suriyalı şair Əli Əhmən Səid (Adonis) idi. İsveç Akademiyasının bəzi üzvlərinin əvvəllər də nominant olmuş ərəb şairinə rəğbət bəslədikləri sirr deyildi.

Lakin gizli səsvermə qələbənin Orxan Pamuka qismət olduğunu üzə çıxardı. Akademiyanın qərarının preambulası həmişəki kimi bəlağətli idi. Türk romançısı "doğulduğu şəhərin melanxolik ruhunun izlərini axtararkən mədəniyyətlərin bir-birləri ilə qarşılaşması və bir-birinə nüfuz etmələri üçün yeni rəmzlər tapdığına görə" Nobel mükafatı qazanmışdı. Pamuk 2006-cı il dekabrın 7-də İsveç Akademiyasında türk dilində "Babamın bavulu" adlı Nobel mühazirəsi oxumuş, dekabrın 10-da isə İsveç kralı Qustavın əlindən Nobel mükafatının qızıl medalını və diplomunu almışdı.

### *Əsərləri*

Təhsilini şəhərin elitar məktəblərindən sayılan Robert Kollecdə almışdı. İstanbul universiteti yanındakı Jurnalistika institutunu bitirmişdi.

Yazmağa 22 yaşından başlasa da, "Cövdət bəy və oğulları" adlı ilk romanı 1982-ci ildə çapdan çıxmışdı və dərhal da diqqəti çəkərək Yəhya Kamal roman mükafatını almışdı. Tarixi mövzuda yazılmış "Ağ qala" (1985) romanı isə yazıçıya beynəlxalq miqyasda şöhrət qazandırmışdı.

Əsərin çapından az sonra "Nyu-York Tayms" qəzeti yazmışdı: "Şərqdə yeni ulduz doğmuşdur. O, türk yazıçısı Orxan Pamukdur".

**Şərq və Qərb mədəniyyətlərinin üz-üzə gəldiyi mistik XVI əsr İstanbulunun bitib-tükənmək bilməyən əsrarlarından söz açan "Mənim adım qırmızı" romanı ilə Orxan Pamuk dünya ədəbiyyatının tanınan simalarından birinə çevrildi. Tək bir il ərzində bu əsər 24 dilə tərcümə olundu. "Mənim adım qırmızı" dünya miqyasında postmodern romanın ən yaxşı nümunələrindən biri sayılmaqdadır. Orxan Pamuk "Səssiz ev" (1983), "Qara kitab" (1990), "Yeni həyat" (1994), "Qar" (2002) romanlarının, "İstanbul. Xatirələr və şəhər" (2003) memuarlarının və "Başqa rənglər" (1999) adlı esselər kitabının da müəllifidir. "Qar" romanında müəllif Türkiyənin şərqində islam təməlçiliyi və qərbləşmə cərəyanlarının necə üz-üzə gəldiyini, insan talelərində necə ağır yaralar açdığını yüksək sənətkarlıq və inandırıcılıqla göstərə bilmişdir. 2005-cü ildə ingilis dilinə çevrilən bu əsər ABŞ-da ilin on ən mühüm bədii nailiyyətləri sırasında özünə yer almışdı.**

**Oğuz Ayvaz**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073
"AZƏRBAYCA
**Telefon: 538**
**F**
**adale**
**adaletqezeti@**